

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 246 (23.408)

*27 dekabr 2019-cu il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 26-da Türkiyə Respublikasının Ticarət naziri xanım Ruhsar Pekcanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Prezident İlham Əliyev həmin gün Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun tikintisi ilə tanış olub. Dövlətimizin başçısına yeni avtomobil yolunun tikintisi çərçivəsində görülən işlərlə bağlı məlumat verilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının "Rossiya-24" televiziya kanalına müsahibə verib. Ölkə başçısı müsahibədə Azərbaycan-Rusiya ikitərəfli münasibətləri və digər məsələlərlə bağlı sualları cavablandırıb.



## Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı sahəsində səmərəli fəaliyyətlərinə görə:

Bayramov Faiq Rafiq oğlu
Məmmədov Fikrət Binnət oğlu
Səfərov Ramazan Səhrəd oğlu – **"Əməkdar kənd təsərrüfatı işçisi"** fəxri adı ilə;

Allahverdiyev Allahverdi Sabir oğlu
Həsənov Hümbət Yusif oğlu
İsmayılov Bəhruz Vaqif oğlu
Kərimov Ziyad Aydın oğlu
Zeynalov Qafar Sadıq oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 26 dekabr 2019-cu il*

## Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq Naxçıvan şəhərində və muxtar respublikada icbari tibbi sığortanın tətbiqinin təmin olunması, əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması və müasir tələblərə uyğunlaşdırılması məqsədilə **qərara alıram:**

1. 2020-ci il yanvarın 1-dən Naxçıvan şəhərində icbari tibbi sığorta tətbiq edilsin.

-Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasına;
-Naxçıvan Muxtar Respublika Xəstəxanasına;
-Əziz Əliyev adına Mərkəzi Uşaq Xəstəxanasına;
-Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzinə;
-Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinə publik hüquqi şəxs statusu verilsin və işçilərinin aylıq vəzifə maaşları 2020-ci il yanvarın 1-dən 50 faiz artırılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamda nəzərdə tutulan publik hüquqi şəxslərin nizamnamələrini təsdiq etsin və 2020-ci il yanvarın 1-dən fəaliyyətlərini təmin etsin.

3. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi, Səhiyyə Nazirliyi və Vergilər Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 26 dekabr 2019-cu il*

## Mərkəzi Hərbi Xəstəxana inşa olunur



Muxtar respublikamızda ordu quruculuğu sahəsində görülən işlər çərçivəsində Naxçıvan şəhərində Əlahiddə Ümumqoşun Ordu üçün 4 min 92 kvadratmetr ərazini əhatə edən Mərkəzi Hərbi Xəstəxana inşa olunur. 398 çarpayılıq hərbi xəstəxananın dam örtüyü vurulub, bütün mərtəbələrdə kommunikasiya xətlərinin çəkilişi başa çatıb, havalandırma sistemi quraşdırılıb. Binanın su və kanalizasiya xətləri çəkilib, inşaatçılar dəmir konstruksiya, izolyasiya və daşdüzmə işlərini davam etdirirlər.

Məlumat üçün bildirək ki, zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarət olan hərbi xəstəxananın hər mərtəbəsində 5 bölmə və müxtəlif şöbələr fəaliyyət göstərəcək. Ümumilikdə, burada 250-yə yaxın otağın olması nəzərdə tutulub. Hərbi xəstəxanada travmatologiya, poliklinika, anesteziologiya, intensiv terapiya, reanimasiya, qəbul çeşidləmə, əməliyyat, cərrahiyyə, VİP, urologiya, psixonevrologiya bölmələri, laboratoriya, yeməkxana və digər infrastruktur şəraiti yaradılacaq. Hər mərtəbədə 4 lift və veb-kameralar quraşdırılacaq. Xəstəxana qabaqcıl ölkələrin istehsalı olan müasir tibbi avadanlıqlarla təchiz ediləcək. Bir sözlə, hərbi qulluqçuların tibbi müayinə və müalicəsinin keyfiyyətlə aparılması üçün nümunəvi şərait yaradılacaq. Ərazidə həmçinin helikopter meydançası da yaradılıb ki, bu da təxirəsalınmaz hallarda xəstələrə təcili tibbi yardım göstərilməsinə imkan verəcək. Bundan başqa, ərazidə müxtəlif yardımçı otaqların da tikilməsi planlaşdırılıb. Xəstəxananın həyətində abadlıq işlərinə də başlanılıb, yaxın gələcəkdə burada yaşıllıqlar və gülkarlıqlar da salınacaq, müasir işıqlandırma sistemi qurulacaq.

Qeyd edək ki, Əlahiddə Ümumqoşun Ordu üçün inşa olunan Mərkəzi Hərbi Xəstəxana istifadəyə verildikdən sonra MDB məkanında ən böyük mərkəzi hərbi xəstəxanalardan biri olacaq.

## Yerli büdcənin gəlirlərinin həcminə görə Naxçıvan şəhəri ölkənin 64 şəhər və rayonundan yüksək göstəricilərə malikdir

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyindən aldığımız məlumata görə, 2020-ci il Naxçıvan Muxtar Respublikası dövlət büdcəsi üzrə şəhər və rayon büdcələrinin yerli gəlirləri 38 milyon 903 min 200 manat, xərcləri 41 milyon 453 min 100 manat, dotasiyası 2 milyon 549 min 900 manat məbləğində proqnozlaşdırılmışdır.***

Ötən illərdə olduğu kimi, növbəti ildə də Şahbuz və Sədərək rayonları istisna olmaqla, digər şəhər və rayon büdcələri dotasiyasız planlaşdırılmışdır.

Naxçıvan şəhər büdcəsinin gəlirləri xərclərinə bərabər olmaqla, 22 milyon 906 min manat, Şərur rayon büdcəsinin gəlirləri xərclərinə bərabər olmaqla, 4 milyon 478 min 300 manat, Babək rayon büdcəsinin gəlirləri xərclərinə bərabər olmaqla, 2 milyon 963 min manat, Ordubad rayon büdcəsinin gəlirləri xərclərinə bərabər olmaqla, 2 milyon 958 min 400 manat, Culfa rayon büdcəsinin gəlirləri xərclərinə bərabər olmaqla, 2 milyon 316 min 300 manat, Kəngərli rayon büdcəsinin gəlirləri xərclərinə bərabər olmaqla, 1 milyon 695 min 300 manat, Şahbuz rayon büdcəsinin gəlirləri 1 milyon 199 min 500 manat, xərcləri 2 milyon 939 min 400 manat, dotasiyası 1 milyon 739 min 900 manat, Sədərək rayon büdcəsinin gəlirləri 386 min 400 manat, xərcləri 1 milyon 196 min 400 manat, dotasiyası 810 min manat məbləğində proqnozlaşdırılmışdır.

Yerli büdcənin gəlirlərinin həcminə görə Naxçıvan şəhəri ölkə üzrə 9-cu sırada olub 64 şəhər və rayondan yüksək göstəricilərə malikdir. Naxçıvan şəhəri digər əhəmiyyətli göstərici olan adambaşına düşən büdcə gəlirləri üzrə də 244 manatla ölkənin şəhər və rayonları arasında 5-ci sıradadır.

Muxtar respublikanın rayonlarının yerli xərcləri də ölkə üzrə göstəricilərdən kifayət qədər aşağı hədlərdədir. Belə ki, ölkənin 73 rayonu üzrə yerli xərclərin ən aşağı 10 göstəricisindən 6-sı muxtar respublikanın yerli büdcələridir.

**Xəbərlər şöbəsi**

## Qadınlara sərmayə kapitalı verilib

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Avropa İttifaqı və BMT-nin İnkişaf Proqramı tərəfindən maliyyələşdirilən və Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən icra olunan "Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi" adlı layihə çərçivəsində Naxçıvan Muxtar Respublikasında həyata keçirilən təlimlərdə maraqlı biznes planları ilə fərqlənən Culfa, Ordubad, Babək rayon qadınlarına sərmayə kapitalının verilməsi ilə əlaqədar Culfa rayonunda tədbir keçirilib.



Əvvəlcə Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsal Məmmədzadə tədbirin mahiyyəti barədə geniş məlumat verib.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova diqqətə çatdırıb ki, cari il ərzində "Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi" layihəsi də muxtar respublikada qadınlara göstərilən qayğının bariz nümunəsidir. Layihədə 34-ü sağlamlıq imkanları məhdud olmaqla, 319 qadın iştirak edib.

Layihə çərçivəsində "Gələcəyini planlaşdır" və "Öz biznesinə başla və onu inkişaf etdir" adlı 12 təlim keçirilib. Təlimlərdə öz biznes planı ilə fəqlənən 63 qadına sərmayə kapitalı verilib, Culfa, Ordubad və Babək rayonlarından olan, öz biznes ideyaları ilə seçilən 19 qadına müvafiq müqavilələr və aktivlər paylanılıb. Sərmayə kapitalının 80 faizi qadınlara ailə təsərrüfatını genişləndirmək və ya qurmaq üçün, 20 faizi isə toxuculuq, dərzilik, bərbərlik sahəsi ilə məşğul olmaları və ya inkişaf etdirmələri üçün verilib.

Tədbirdə qadınlara, ümumilikdə, 18 baş xırdabuynuzlu, 10 baş iribuynuzlu heyvan, 2 tikiş maşını, 2 hana və digər avadanlıqlar verilib.

Ramilə Seyidova qadınlara göstərilən qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonra Azərbaycan Mikromaliyyə Assosiasiyasının layihə rəhbəri Sevinc Rüstəmova çıxış edərək qadınlarla assosiasiya arasında imzalanan müqavilələr haqqında ətraflı məlumat verib.

Layihə iştirakçısı Çiçək Bayramova onlara göstərilən qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Tədbirdə sərmayə kapitalı verilən qadınlara müqavilələr təqdim edilib, sərmayə kapitalının dəyərində alınmış aktivlərə yerində baxış olub.

Qeyd edək ki, layihə çərçivəsində qadınlara, ümumilikdə, 43 min 700 manat dəyərində sərmayə kapitalı verilib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

“Ailə təsərrüfatları ili” – 2019

# Torpaq, hava, su... Mən, sən, o – biz...

*2019-cu ilin muxtar respublikamızda “Ailə təsərrüfatları ili” elan olunması əkinçilik mədəniyyəti tarixi uzaq keçmişə söykənən bu qədim diyarımızın dünəni ilə bu günü arasında düşündürücü bir məqam yaradır. Bəli, Naxçıvana Ulu Yaradanın bəxş etdiyi bərəkətli torpaqlar, bol günəşli, oksigenli hava, saf sular, büllur bulaqlar, bir də ki zəhmətlə dost insanların sayəsində hələ lap qədimlərdən burada əkinçilik mədəniyyəti formalaşmışdır. İndi muzeylərimizdə saxlanan qədim əkinçilik alətləri – kotan, xış, cüt, vəl, car-car bir zamanların zəhmətinin “ixtiralarıdır”. Bunlar bir yazımda da qeyd etdiyim kimi, torpağın əlifbasını sıralayan, bu əlifbadan torpağın “dilini” öyrənən və onu əlləri ilə ələyib sinəsində möcüzələr yaradan insanların birgə əməyindən, torpağa daha yaxın təmasından yaranmışdır. Bu birlik, kollektivçilik zaman-zaman əmək nəğmələrini də yaradıb folklorumuzun bir parçasına çevirmişdir.*



Özümüzü dərk edəndən hər kəsin Naxçıvan məhsullarından ağızdolusu danışdığının, getdiyimiz şəhərlərdə, qonağı olduğumuz evlərdə bu yerin yetirdiyi-bitirdiyi nemətlərə tamamilə fərqli münasibətin şahidi olmuşuq. Hələ “sovet dövrü” adlandırdığımız dönəmdə Rusiyanın ayrı-ayrı şəhərlərində təhsil alan, hərbi xidmətdə olanların söylədiklərinə əsasən buradan göndərilən sovqatlar dadına, ətrinə görə həmişə onların ətrafındakı başqa millətlərdən olan insanların heyrətinə səbəb olurmuş. Paytaxt Bakı bazarlarında Naxçıvanın məhsulları – balı, badamı, cəvizi, pendiri, şoru, kərəsi, əriyi, alça qurusu, dərman bitkiləri, meyvəsi həmişə əl-əl axtarılır. Naxçıvanımızın yetirib-bitirdiyi nə varsa, hamısı bir başqadır. Bəs bunun sirri nədədir?..

### Torpaqdamı?..

Deyirlər, nəyə sevgi verərsən, bəhrəsi şirin olar. Bəlkə də, dağlarımızın, düzlərimizin, əkin sahələrimizin, həyətlərimizin nemətlərinin cazibədarlığının, dad-tamının, keyfiyyət və ətrinin sirri elə bundadır. Axı yurdumuzun zəhmət adamları ata-baba yadigarı olan torpaqlarımızı zaman-zaman yağı düşməndən göz bəbəyi tək qoruduqları kimi, böyük istək və sevgi ilə də əkib-becəriblər. Torpağın “istəyi” nədir ki? – “Əz məni, əzizləyim səni”. Ataya, anaya olan eyni məhəbbətlə torpağı sevən insanlar onu zaman-zaman ululaşdırıb, övladlarından biri sandıqları üçün doğmalaşdırıblar. Ona qayğı ilə yanaşıb, əzizləyə-əzizləyə əzib, əzizləniblər. Beləliklə də, torpaq sevgisi nəsildən-nəslə ötürülərək bu yerin insanlarını yazın gözü açılandan qar yerə düşənədək özünə bağlayıb. Sübh gözünü açmamış əkinə-biçinə, şuma, dərməyə, toplamağa səsləyib, Günəşin qürubda mürgü döydüyü vaxtadək iş yerlərinə çevrilib. Torpaq təri zərə çevirib ona sevdalı insanlara qaytaranda isə, təbii ki, bu sevginin məhsullarının da dad-tamı, gözəlliyi dillər əzbərinə çevriləcək.

Lakin gəlin görək, torpaq Günəşsiz, susuz, təkbaşına bu nemətləri yetirə bilərmi? Deməli, bu diyarın dillər əzbəri olan gözəl nemətlərinin sirri tək torpaqda deyil. Bəs nədədir?

### Havadamı?..

Necə gözəl bir diyarda yaşadığımızı dərk etməyin özü bir mədəniyyətdir. Bunun fərqinə varmamaq ən azından günahdır. Taleyimizi Ulu Yaradan bir tərəfi dəniz səviyyəsindən yüzlərlə metr yüksəklik, bir tərəfi dağlar, qayalar, bir tərəfi aran – min hektarlarla uzanan düzlər olan gözəl bir coğrafi məkana yazıb. Şərurda yayda zəmilərdə buğda sünbüldən çırtlayıb töküləndə Şahbuzda Batabatın Zor bulağının buz kimi suyunda əlini bir dəqiqə saxlaya bilmirsən. Naxçıvanda, Babəkdə yazda ağaclar çiçəyini tökəndə Ordubadda, Sədərəkdə təbiət baharın gəlişini yenicə duymağa başlayır. Dünyanın bəzi yerlərində yağışdan, rütubətdən insanların ətrafını yalnız yosunların sardığı, bəzi yerlərində Günəşin yandırıb yaxıb hər yeri səhralıqlara çevirdiyi halda, Naxçıvanda, sanki Günəş saatla işləyib bu diyarı güneyli-quzeyli, aranlı-dağlı, istili-soyuqlu edir. Günəşin torpağa təması isə onun sinəsinə səpilən hər bir toxumun sabah elə Günəşə boylanması deməkdir. Bəs tək torpaqla Günəşin gücü çatarmı bu nemətləri yetirməyə. Yox, burada üçüncü bir sirr var. Nədədir bu sirr?

### Sudamı?..

Bəli, bu sirrin biri də, həyatdır dediyimiz sudadır. Dünyanın əksər ölkələrində su qıtlığı insanları olmazın əziyyəti ilə üz-üzə qoyur. Gündəlik məişətdə istifadə etməyə su tapmayan, onu xüsusi qoşqu vasitələrilə uzaq məsafələrdən daşıyan milyonlarla insan var. Suyun azlığı, yaxud da, ümumiyyətlə, yoxluğu səbəbindən antisanitariya şəraitində yaşayanlar var. Kanalizasiya sularından əkin sahələrinin suvarılmasında istifadə edən ölkələr var. Bəs bizdə? Qışda sükuta qərq olub, yazda Günəşin azacıq hərarəti ilə dağların zirvəsində əriyən qar sularının da şaqqıltıyla axıb qarışdığı çayların, göllərin suyu ilə suvarılır əkin sahələrimiz, bağlarımız, bostanlarımız. Belə isə niyə gözəl, keyfiyyətli, dadlı, ətirli olmasın ki, nemətlərimiz?

Xoşbəxtik ki, ölkəmizin bu gözəl diyarında su sarıdan bir çox ölkələrin insanlarının yaşadığı çətinliklər yoxdur. Muxtar respublikamızdakı saf, təmiz sular isə dünyanın heç bir yerində yoxdur. Ulu Yaradanımız həm içməli,



həm də suvarma suyunu böyük səxavətlə bəxş edib bizə. Elə ölkəmizin digər yerlərində içməli su marketlərdən alındığı halda, bu gözəl diyarın şəhər və rayonlarında istənilən evdə su kranını açmaqla min metrlərlə uzaq məsafədən çəkilib düz evlərimizədək gətirilən büllur bulaqlarımızın suları axır. 70 ildə də mövcud olan, lakin dağa-yaylağa gedəndə içə bildiyimiz, butulkalarda bir neçə günlük istifadə üçün evimizə gətirdiyimiz büllur bulaqların saf suları. Sudan söhbət düşmüşkən, 2014-cü ildən muxtar respublikamızda mütərəqqi suvarma sistemlərinin qurulmasını da vurğulamaq yerinə düşər. Yeni sistemin tətbiqi nəticəsində indiyədək 4479 hektar kənd təsərrüfatına yararlı torpaq sahəsi əkin dövriyyəsinə daxil edilmişdir. Bu isə yeni iş yerlərinin yaranması ilə yanaşı, həm də bol, keyfiyyətli məhsul deməkdir. Çünki su varsa, həyat var…

### Mən... Sən... O...

Baxmayaraq ki, qədim və zəngin əkinçilik mədəniyyətinə malik olmuşduq, sən demə, tale yazısı bizi torpaqla bağlı bir xeyli çətinliklərlə də üz-üzə qoyacaqmış. Ömrünü-gününü zəhmətə, əkinə bağlayan insanların torpaqları – övladları əllərindən alınıb kolxoz, sovxozlara veriləcəkmiş. Bəli, belə də oldu. Torpağa sığal çəkən əllər xeyli qoyunlarda qaldı, sonra isə onsuz qala bilməyən insanlar öz torpaqlarında başqaları üçün işləməli oldular. Bu alın yazısına boyun əydiyimiz zaman artıq birliyimiz, kollektivçiliyimiz də tar-mar oldu. Sadəcə, hər kəs məvacib üçün məcburən bir yerdə işləməyə başladı. Artıq qədim əkinçilik mədəniyyətinin “müəllifi” olan bizlər “mən”lərə, “sən”lərə bölündük. Əməyimizin, zəhmətimizin sahibi isə başqaları oldu. Bu, nə az, nə çox, düz yetmiş il torpaq həsrəti yaşatdı insanlara. Dədə-baba torpaqlarının bağrını yaran traktor, kombaynları gördükcə hər dəfə, sanki ürəyimizə xəncər saplandı.

Sovet dönəminin tənəzzülə uğradığı, müstəqillik uğrunda mübarizələrə başladığımız illərdə ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi ucbatından yüzlərlə idarə, müəssisə, təşkilat bağlandı. İnsanlar öz iş yerlərini itirdilər. İnfrastrukturun dağılması kənd təsərrüfatına da ciddi ziyan vurdu, torpaqların əkilməsi zəiflədi. Əlacsız qalan insanlardan kimi çörəkpulu ucbatından qonşu ölkələrə işləməyə getdi, kimi şəhər, rayon, kəndlərdə, harada gəldi o vaxt komisyon mağaza dediyimiz “obyekt” açıb, kiçik alverə başladı, kimi də həyat yoldaşı, övladları ilə birlikdə üz tutdu dağlarımızın, düzlərimizin nemətlərini toplamağa. O nemətlər ki Ulu Yaradanın bu yerin insanlarına tükənməz ruzisidir və bütün çətin dövrlərdə onların köməyinə gəlib. Həmin nemətlərlə insanlar ən ağır müharibələrin, blokadaların acılı günlərindən övladlarının yanında üzüağ çıxıblar.

### Torpaq bizim olanda

Əldə etdiyimiz müstəqilliyin ilk illərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən ulu öndərimiz kənd təsərrüfatının inkişafının vacibliyini daim ön plana çəkərək bununla bağlı mühüm qərarlar qəbul etdi. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında “Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında” və “Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında” qərarlar qəbul edildi, bununla da Azərbaycanda torpaq islahatına ilk dəfə Naxçıvandan başlanıldı. Beləliklə, zəhmət adamları illərdən bəri əllərindən alınan torpaqların yenidən sahibinə çevrildilər. Bunun ardınca muxtar respublikamızın hər yerində quruculuq işlərinə başlanıldı. Düşünəndə ki, ölkəmiz müstəqildir, kəndlərimiz abadlaşır, toprağımız artıq özümüzündür, bu, insanlarda böyük ruh yüksəkliyi yaratdı. Torpaq sahibi olmaları xəbərini alan qonşu ölkələrə işləməyə gedənlər geri qayıtdılar. Komisyon mağaza “sahibləri” şəhərdəki müxtəlif ticarət obyektlərindən mal və məhsulları nisyə götürüb nisyə də satdıqları və xeyir götürmək əvəzinə, ziyana düşdükləri “obyektlərini” bağlayıb əkinə-biçinə başladılar. Bu işlərdə onlara həyat yoldaşlarının, övladlarının, yaxın qohumlarının kömək etməsi, bir də ən əsası dövlət dəstəyinin göstərilməsi – subsidiyaların verilməsi, torpaqların vergidən azad olunması, kənd təsərrüfatı məhsullarının sərbəst satışı üçün şəraitin yaradılması, güzəştli şərtlərlə kreditlərin və texnikaların verilməsi, aqrolizinq xidməti göstərilməsi, kənd təsərrüfatı məhsullarının satış yarmarkalarının təşkili və sərbəst ixraca yaradılan şəraitlə “mən”, “sən”, “o” yenidən bizlərə çevrildik, ailə təsərrüfatlarında birləşdik. Məhsulumuz ildən-ilə artdıqca, güzəranımız yaxşılaşdıqca, gəlirlərimizin ehtiyacımızı ödəyib artıq qalanı ilə özümüzə ev tikib yurd saldıqca, ata-babadan qalan köhnə evlərimizi təmir etdikcə, övladımıza təhsil verib, toy edib, cehiz aldıqca, damazlıq heyvanlar əldə edib yeni təsərrüfatlar yaratdıqca, ən əsası isə işsizliyin sayı sürətlə azaldıqca anladıq ki, torpaq ən yaxşı iş yeridir. Ali Məclis Sədrinin dediyi kimi: ***“...Yeni müəssisələr yaradılarkən muxtar respublikanın bütün rayonları üzrə əmək və xammal ehtiyatları, təsərrüfatçılıq ənənələri nəzərə alınmalıdır. Ailə təsərrüfatlarının yaradılması və inkişafı yeni istehsal müəssisəsi yaratmadan məşğulluq problemini həll edir, əhali gəlirlərinin həcminin artmasına müsbət təsir göstərir. Ona görə də ailə təsərrüfatlarının yaradılmasına üstünlük verilməlidir”.***

### Beləliklə, biz ailə təsərrüfatçıları olduq

Son 30 ilə yaxın bir dövrün blokada Naxçıvanının bütün sahələrini əhatə edən 24 illik inkişaf və tərəqqi iş yerləri



torpaq olan insanların həyatında əsaslı dönüş yaratdı. Sovetlər dönəmində diyarımızın dağlarından, düzlərindən min bir zəhmətlə topladıqları nemətləri, dərman bitkilərini müəyyən qurumlara dəyərindən dəfələrlə ucuz qiymətə təhvil verən insanların ötən illərdə onları sərbəst, həm də özlərinin müəyyənləşdirdikləri qiymətə sata bilmələri, eləcə də kənd təsərrüfatının ayrı-ayrı sahələri – arıçılıq, bağçılıq, bostançılıq, heyvandarlıq, maldarlıq, quşçuluq üçün yaradılan şərait, göstərilən dəstək yeni-yeni ailə təsərrüfatlarının yaranması ilə nəticələndi. Ailə təsərrüfatlarının sayı çoxaldıqca işsizliyin sayı azalmağa başladı. Yadımdadır, 20-25 il bundan əvvəl övladlarını işsiz olduğu üçün evləndirə bilməyən ailələr var idi. Yaş keçir, yeni ailələr qurula bilmirdi. Dövlət qayğısı ilə indi torpaq elə bir gəlirli sahəyə çevrilib ki, iş yeri üçün onu seçənlərin maddi imkanları çoxlarından qat-qat üstündür. İşsizlik aradan qalxdıqca maddi rifah halı yüksəldi. Həm də cəmiyyət sağlamlaşmağa başladı. Bir vaxtlar gününü çayxanalarda keçirən gəncliyimiz vardı, bunu xatırlayanlar çox olar. Səhərdən axşamadək siqaret tüstüsünü ciyərlərinə çəkib, şaqqıltısı kəndin ayağından eşidilən “nərd çırpan” gənclərimiz indi övladlarını başlarına yığıb həm gözəl ailə başçısı, həm də ailə təsərrüfatı sahibinə çevriliblər. Torpaqsız günlər insanlara bir də bunu aşılayıb: torpağa sonsuz məhəbbəti, bu qiymətli sərvəti onların edənlərə qədirbilənliyi…

### Zəhmət adamları qürur duyurlar

Qeyd etmək yerinə düşər ki, 2019-cu ilin muxtar respublikamızda “Ailə təsərrüfatları ili” elan olunması bir məqamı da təsdiqlədi: əsas məqsəd insan amili olan diyarımızda zəhmət adamlarına dəyər faktorunu. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatının inkişafı ilə bağlı Tədbirlər Planı”nın 2019-cu il 18 yanvar tarixli Sərəncamla yenilənməsi, ailə təsərrüfatlarını dəstəkləmək məqsədilə Ailə Təsərrüfatları İctimai Birliyinin yaradılması sübut etdi ki, muxtar respublikamızda alimə, həkimə, müəllimə və zəhmət adamına eyni qayğı ilə yanaşılır. Bu həssas münasibətdən isə zəhmət adamları qürur duyurlar.

İllərdir, muxtar respublikada əhalinin zəruri ərzaq məhsulları ilə təmin olunması məqsədilə bir çox dövlət proqramları qəbul edilərək uğurla icra olunur. Hazırda sosial-iqtisadi inkişafla, meyvəçilik, tərəvəzçilik və arıçılıqla bağlı icrası davam etdirilən dövlət proqramları muxtar respublikada aqrar sahənin, eləcə də ailə təsərrüfatlarının inkişafına öz töhfəsini verməkdədir, “Ailə təsərrüfatı məhsulları” festivalları ilə yanaşı, “Göycə”, “Kətə”, “Arıçılıq məhsulları – bal” festivallarının keçirilməsi, ailə təsərrüfatlarının istehsal etdikləri məhsulların brendləşdirilməsi, qablaşdırma və dizaynların tərtib olunması, “İstehsaldan marketə” prinsipinə əsaslanaraq ailə təsərrüfatlarının taralarla təchiz olunması istehsal olunmuş məhsulun həm bazara itkisiz çatdırılmasına, həm də böyük alıcı rəğbətinin qazanılmasına imkan verib. Artıq başa çatmaqda olan ilə nəzər saldıqda görürük ki, “Ailə təsərrüfatları ili”ndə görülən çoxşaxəli tədbirlər muxtar respublikada belə təsərrüfatların inkişafına böyük stimul olub, bölgələrdə yeni təsərrüfatların formalaşmasına geniş imkanlar açıb. Bu gün muxtar respubli-



kamızda 4000-ə yaxın ailə təsərrüfatı vardır ki, onun da 1000-ə yaxını ən qabaqcıllarıdır.

### Rəqabət: ailə təsərrüfatından sahibkarlığa...

Etiraf edək ki, hansı sahənin sahibi olmasından asılı olmayaraq, biz insanların diqqətə, qayğıya ehtiyacımız var. Ötən illər ərzində zəhmət adamlarına göstərilən qayğı, ən əsası isə kənd təsərrüfatı yönümlü bütün festivallarda Ali Məclis Sədrinin iştirakı, ailə təsərrüfatçıları ilə söhbətləri, istehsal etdikləri məhsullara verdiyi qiymət, onların yanında aid qurumlara verilən tapşırıqlar, festivallarda zəhmət adamlarının mükafatlandırılması, ailə təsərrüfatlarının kiçik sahibkarlıq subyektləri kimi formalaşması, istehsal olunan məhsulların xüsusi əmtəə nişanı ilə satışa çıxarılması, kiçik ərzaq mağazalarından tutmuş böyük marketlərədək ailə təsərrüfatları məhsulları üçün guşələrin ayrılması, bütün bunların sayəsində alıcı marağının yaranması bu insanların ürəklərini dağa döndərdi. Bu qayğı qarşıdakı festivala, məhsul yarmarkalarına, bazarlara daha yaxşı məhsullar çıxarmağa stimul oldu. Beləliklə, ailə təsərrüfatları arasında rəqabət formalaşdı. Bu isə inkişafın ən başlıca amili olduğundan ailə təsərrüfatlarından sahibkarlığa doğru cığırlar açıldı. Ali Məclis Sədrinin də söylədiyi kimi: ***“Sahibkarlığın inkişafının bir yolu da ailə təsərrüfatlarının fəaliyyətini dəstəkləməkdən keçir. Çünki ailə təsərrüfatları həm yerli istehsalın həcminin artmasına və özünüməşğulluğun təmin olunmasına, həm də kiçik və orta sahibkarlığın inkişafına böyük təkan verir”.***

*Budur, 2019-cu ilin bitməsinə sayılı günlər qalır. “Ailə təsərrüfatları ili” başa çatır. Lakin muxtar respublikamızda belə təsərrüfatlar ilə bağlı görülən işlər qarşıdakı neçə-neçə illəri də əhatə etməklə 2019-cu ili torpaq, zəhmət ili, kiçik sahibkarlıqdan böyük sahibkarlığa aparan yol kimi tarixin yaddaşında saxlayacaq. “Ailə təsərrüfatları ili”nin ümumi mənzərəsində bir də görünən odur ki, torpaq, hava, su hər biri təklikdə hansısa canlını yaşada, təbii aləmi mövcud edə bilmədiyi kimi, bizlər də “mən”ə, “sən”ə, “o”na ayrılanda bir ola, birlik ola bilmərik. Birlik olmayan yerdə isə dirilik yoxdur.*

**Mətanət MƏMMƏDOVA**



*Yaşadığımız dövr cəmiyyətin sürətli inkişafı və buna müvafiq olaraq yeni tələbatların yaranması ilə xarakterizə olunur. Elmi nailiyyətlərin və texnoloji yeniliklərin sürətlə insan həyatına tətbiq olunması sosial həyatın ən aparıcı sahəsi olan təhsilin qarşısında da mühüm tələblər qoyur. Bu baxımdan qabaqcıl təhsil üsulları ilə hazırlanan bacarıqlı kadrların həyatımıza yeni keyfiyyət dəyişiklikləri gətirməsi bir aksiom kimi artıq hər kəsin qəbul etdiyi reallıqdır. Ona görə də ali və orta ixtisas təhsili qarşısında qoyulmuş prioritetlər cəmiyyətimizdə öz aktuallığını qorumaqda, həmişə diqqət mərkəzində qalmaqdadır. Muxtar respublikamızda da ali və orta ixtisas təhsili ocaqlarının günün tələbləri səviyyəsində yenidən qurulması, ən müasir tədris avadanlıqlarının alınıb gətirilməsi kadr hazırlığının səviyyəsinə öz təsirini göstərmiş, ali təhsil almaq üçün Naxçıvana üz tutan əcnəbi tələbələrin sayında ciddi artım olmuşdur.*

***Təhsil millətin gələcəyidir***

# Hərtərəfli inkişafı təmin edəcək kadr potensialının yaradılması əsas məqsəddir

Təhsil ən vacib və mürəkkəb sahələrdən biridir. Cəmiyyətin bütün inkişafı məhz təhsillə bağlı olduğu üçün burada görülən hər bir iş və həyata keçirilən hər bir yeni islahat da dünyəvi inkişafla ayaqlaşmaq üçün atılan bünövrədir. Buna görə də ötən dövrdə təhsildə qarşıya qoyulmuş vəzifələrin uğurlu həllini muxtar respublikamızda əldə olunmuş nailiyyətlərin ümumi bir göstəricisi kimi də qiymətləndirmək mümkündür. Cari ilin oktyabr ayının 25-də Naxçıvan Muxtar Respublikasının ali və orta ixtisas təhsili müəssisələrinə qəbulun nəticələri və qarşıda duran vəzifələr barədə keçirilmiş müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qeyd etdiyi kimi: **“*Bu günədək muxtar respublikada 200-dən artıq ümumtəhsil məktəbi daxil olmaqla, 300-dən çox təhsil müəssisəsi tikinti və yenidənqurmadan sonra istifadəyə verilmiş, təhsildə informasiya kommunikasiya texnologiyalarının tətbiqi genişləndirilmiş, məktəblər ən müasir avadanlıqlarla təmin olunmuşlar. Muxtar respublikanın ümumtəhsil məktəblərində 50 min 590 şagirdin təhsili ilə 6 min 751 müəllim məşğul olur. Ümumtəhsil məktəblərinin informasiya təminatı 6000-ə yaxın kompüter, 650-dək elektron lövhə, laboratoriyalar, fənn kabinələri və digər texniki avadanlıqları əhatə edir*”.**

Göründüyü kimi, müasir təhsil infrastrukturunun yaradılması və yenidən qurulması istiqamətində muxtar respublikamızda həyata keçirilmiş işlər təkcə bugünkü tələbatın ödənilməsi deyil, gələcək perspektivlər üçün də nəzərdə tutularaq öz həllini tapıb.

Cəmiyyətdə baş verən bütün yeniliklərə, elmi-texniki sahələrdəki innovasiyalara çox həssas olan təhsil həm də səbir və uzunmüddətli əmək tələb edən mürəkkəb sosial-iqtisadi münasibətlər sistemidir. Bu mənada, ali və orta ixtisas təhsili sahəsində mövcud olan münasibətlər təkcə gələcəkdə cəmiyyətdə yaxşı mövqe tutmaq və yaxud güclü karyera qurmaqla məhdudlaşmayıb ali məqsədlərə çatmaq prinsipləri üzərində tənzimləndikdə daha səmərəli nəticələr verir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bu gün ali təhsil pillələrində hazırlanan kadrların cəmiyyətin müxtəlif sahələrində və elə təhsilin özündə göstərdiyi araşdırmaçılıq, yeni düşüncə və rasional idarəetmə, son nəticədə, dayanıqlı inkişafa öz töhfəsini verən əsas amillərdəndir. Bu mənada, gələcəkdə tutduğu istənilən vəzifədə gördüyü işlərlə təkcə öz maddi imkanlarını deyil, hər vasitə ilə ölkəmizin milli sərvətinin artırılmasına çalışan, qurulub yaradılanları, maddi və maliyyə resurslarını qənaət və rasionallıqla istifadə edən, intellektual potensialdan bəhrələnməyə maraqlı olan kadrlarımızın hazırlanması müasir təhsilimizin qarşısında qoyulmuş əsas vəzifələrdəndir.





Müasir dövr qloballaşmanın cəmiyyətin bütün sahələrinə nüfuz etməsi və təhsilin də bu fenomendən öz payını alması ilə xarakterizə olunur. İnformasiya texnologiyalarının sürətli inkişafı, yeni nəsil kommunikasiya vasitələrinin ictimai həyatın bütün sferalarına yayılması təhsil sahəsində də öz sözünü deyir. Xüsusən araşdırmaçılıq və yeni biliklər qazanılması sahəsi olan ali təhsil mərhələsində bu texnologiyaların tətbiqi klassik təhsil ənənələri ilə yenilikçilik arasında obyektiv təzadlar və bəzən də problemlər yaradır. İnterneti biliklər əldə etməyin bir vasitəsi deyil, asan elm mənbəyi kimi qəbul edən əzbərçi gənckliklə, elmin yalnız kitablarda axtarılmasını israr edən orta və yaşlı nəsil arasındakı disputların ortaq həllinin tapılması müasir ali təhsilimizdəki həllivacib məsələlərdəndir. İnternetin sonsuz imkanlarından gənclərin formalaşmaqda olan düşüncələrinin və milli şüurunun zədələnmədən istifadə olunması üçün onlara düzgün istiqamət verilməsi ali məktəblərdəki professor-müəllim heyətinin qarşısında duran vəzifələrdəndir. Eləcə də ötən əsrin 80-90-cı illərinin məhdud bilikləri ilə kifayətlənib, gənclərin qaynayan potensialına uyğunlaşmaqda “sinifdə qalan” və müasir sürətli informasiya anlayışını, sadəcə, bir neçə messencerlə qavramaqla kifayətlənən bəzi ali məktəb müəllimlərinin də qısa bir zamanda yeni əsrin yeni tələbatlarına uyğunlaşmasının vaxtı çoxdan çatıb.

Təhsil vətənpərvərlik, gəncliyə və gələcəyə sevgi, həm də fədakarlıq sahəsidir. Bu sahədə özünü təsdiq etmiş alim və pedaqoqlarımızın təcrübəsi sübut edir ki, bu gün təhsildə göstərilən hər cür prinsipiallıq sabah cəmiyyətimizdəki mühüm idarəetmə pillələrində daha layiqli kadrların yerləşməsinə imkan yaradacaq. Xüsusən bazar iqtisadiyyatı şəraitində müasir menecmentin tələblərinə cavab verən belə hərtərəfli kadrlar qlobal rəqabət şəraitində işləməklə ölkəmizin iqtisadi potensialının artırılmasına, mədəniyyətimizin və turizm potensialımızın təbliğinə operativ qərarlar verəcəkdir. Bu mənada, ali təhsil müəssisələrində yetişdirilən və milli ideologiyamızı hərtərəfli mənimsəmiş gənc kadrlarımız ölkə mənafeyini hər şeydən üstün tutan, dünyanın harasında olursa olsun, Azərbaycan üçün yaşamağı və çalışmağı bacaran insanlar olmalıdırlar. İxtisasından asılı olmayaraq, bu insanlar ölkəmizin bugünkü uğurlarına sevinənləri, eləcə də qlobal təhdidləri görüb qiymətləndirməyi bacaran mütəxəssis kimi yetişməlidirlər. Muxtar respublikamızın ali məktəblərində mövcud olan düşüncə sahiblərinin, araşdırmaçıların elmi potensialının gənc nəslin qazancına çevrilməsi üçün indi ən əlverişli şəraitin, maddi-texniki bazanın mövcud olduğunu nəzərə alsaq, heç bir ali məktəb tələbəsinin də bu biliklərə yiyələnməkdə, necə deyərlər, bəhanəsi olmamalıdır.

Ali məktəb, universitet funksional olaraq elmi nəticələrin müəyyənləşdirildiyi, bu nəticələrin gənc nəslə öyrədildiyi və ictimai həyatın müxtəlif sahələri, xüsusən də özəl sektorla qarşılıqlı əməkdaşlığın qurulduğu mühüm bir institusional təsisatdır. Bu mənada, üçüncü funksiya bazar iqtisadiyyatı şəraitində yaşamaq və işləmək şərtlərinə uyğunlaşmaq baxımından daha çox əhəmiyyətlidir. Belə ki, elmin istehsala, cəmiyyətin tələblərinin ödənilməsinə yönəlmiş inkişafı onun özünümaliyyələşməsində mühüm irəliləyişdir ki, bunu da müasir dünyada mövcud olan yüksək texnoloji şirkətlərlə universitetlərin sıx əməkdaşlığında görürük. Muxtar respublikamızda mövcud olan elmi potensialın startap hərəkatı ilə iqtisadiyyatın müxtəlif sahələrində praktik təsdiqini tapması üçün görülən işlər isə lap yaxında dünyada ilk olacaq layihələrin reallaşmasına imkan yaradacaq. Buna çox istəkli olan gəncliyimizin dinamizmi də belə deməyə əsas verir.

Və nəhayət, təhsil dövlətçiliyimizin möhkəmləndirilməsi üçün milli şüura və ensiklopedik biliklərə malik intellektin yetişdirilməsi sahəsidir. Düşüncə və əməlində onlara bu günləri nəsib etmiş ulu öndərimizə sədaqət ruhunu gördüyümüz bugünkü Azərbaycan gəncliyinə – ali məktəb tələbələrinə baxdıqda onlara qol-qanad verən rəhbərinin ardınca həmişə cəsarətlə addımlayacaqlarına, əldə etdikləri qazancları sabah xalqımızın sərvətinə çevirəcəklərinə inanırıq. Bir universitet müəllimi olaraq Naxçıvanda ali təhsil alan tələbələrin gözlərindəki sabaha inamı, addımlarındakı qətiyyət və ürəklərindəki doğma məktəblərə məhəbbəti daim görmək belə deməyə əsas verir.

**Əli CABBAROV**

## Böyük Britaniyada nəşr olunan turizm broşüründə Naxçıvan barədə geniş məlumat verilmişdir




Naxçıvan Muxtar Respublikasının turizm potensialı, zəngin tarixi-mədəni irsi, müasir inkişafı haqqında məlumatların yayılması və təbliği məqsədilə Böyük Britaniyada fəaliyyət göstərən nüfuzlu “Regent Holidays” turizm şirkətinin 2020-ci il üçün hazırladığı yeni turizm broşürünə Naxçıvan Muxtar Respublikasına turlar da daxil edilmişdir. “Regent Holidays” turizm şirkəti tərəfindən nəşr olunan broşür Böyük Britaniyada fəaliyyət göstərən biznes mərkəzləri, turizm sərgiləri, qəzet köşkləri, alış-veriş mərkəzləri, restoranlar və turistlərin daha çox olduğu ərazilərə paylanılır.

Broşürdə Naxçıvan Muxtar Respublikasına 2020-ci ilin may ayında təklif olunan 3 günlük tur proqramından xüsusi bəhs olunmuş və Naxçıvan barədə aşağıdakı qeydlər yer almışdır: “Adi turistik ərazilərdən fərqli olaraq kiçik qrup turu ilə Azərbaycanın zəngin tarixi və mədəniyyətini tədqiq edin. Neftlə məşhur şəhəri və tarixi qalaları olan fərqli bir ölkəni kəşf edin. Tur proqramında diqqəti çəkən ən maraqlı məqam Naxçıvan Muxtar Respublikasında üç gün qalmaqdır. Azərbaycanın ayrılmaz parçası olan bu diyara turist səfərləri təşkil olunur. Biz də turistlərin bu qədim diyarla tanışlığı məqsədilə turlar təşkil etmişik. Əminik ki, turistlər Naxçıvan turundan məmnun qalacaqlar”.

## Tibb fakültəsində istehsalat müşavirəsi keçirilib

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində keçirilən müşavirədə rektor, dosent Elbrus İsayev çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə 1999-cu ildən tibb təhsili sahəsində yeni mərhələnin əsası qoyulub. Vurğulanıb ki, 2019-cu ilin iyun ayında fakültənin müasir tibbi avadanlıqlarla təchiz edilmiş yeni tədris kompleksinin istifadəyə verilməsi bu sahədə aparılan inkişaf strategiyasına ən bariz nümunədir. Rektor bildirib ki, artıq 20 illiyi qeyd edilən fakültədə ali tibb təhsilinin keyfiyyətinin yüksəldilməsi, tədris və istehsalat bazalarının daha da işlək vəziyyətə gətirilməsi, yeni layihələrin, tibbi kadrların hazırlanması sahəsində fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi əsas prioritetlərdən biri olmalıdır.

“Naxçıvan Dövlət Universitetində tibbi kadrların hazırlığının indiki vəziyyəti, qarşıda duran vəzifələr” mövzusunda fakültənin dekanı, dosent Elsevər Əsədov çıxış edərək bildirib ki, 2003-cü ildən müstəqil fəaliyyət göstərən fakültədə hazırda 680-ə yaxın tələbə təhsil alır. Onların 300-dən çoxu xarici ölkə vətəndaşıdır. 2012-ci ildən rezidentura hazırlığına başlanılan fakültədə 24 ixtisas üzrə rezident hazırlığı həyata keçirilir, hazırda 56 həkim-rezident də muxtar respublikanın xəstəxanalarından tədris-klinik baza kimi istifadə edir.



Sonra müəllimlərin mövzu ilə əlaqədar təklifləri dəyərləndirilib, müzakirələr aparılıb.

**Səadət ƏLİYEVA**

## Test imtahanları başa çatıb

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət musiqi təhsili müəssisələrində vakant vəzifələrin tutulması üçün 18 oktyabr 2019-cu il tarixdə elan olunmuş müsabiqənin test imtahanları keçirilib. Müsabiqəyə çıxarılmış 186 vakant vəzifənin tutulması üçün 61 nəfər sənəd verib. Test imtahanlarında 60 namizəd iştirak edib, onlardan 13-ü keçid balını toplayıb.

Qeyd edək ki, ilk dəfə olaraq 2019-cu ildən dövlət musiqi təhsili müəssisələrinə işə qəbul mərkəzləşdirilmiş qaydada müsabiqə və şəffaflıq əsasında elektron proqram təminatı tətbiq olunmaqla test imtahanları vasitəsilə keçirilib. Test imtahanlarının keçirilməsində əsas məqsəd tədrisin keyfiyyətinin artırılması üçün dövlət musiqi təhsili müəssisələrinin ixtisaslı kadrlarla təmin edilməsidir.

Naxçıvan Musiqi Kollecində işə qəbul üçün ali təhsil müəssisələrini, uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə işə qəbul üçün ali və ya orta ixtisas təhsili müəssisələrini bitirmiş şəxslər iştirak ediblər.

Naxçıvan Musiqi Kollecinə işə qəbul üçün test imtahanında hər bir namizədə, ümumilikdə, 80 olmaqla, müəssisələrdə tədris olunan ixtisaslar üzrə 70, informasiya və kommunikasiya texnologiyalarına aid 10 test tapşırığı təqdim edilib, tapşırıqların yerinə yetirilməsi üçün 120 dəqiqə vaxt verilib. Uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə işə qəbul üçün test imtahanında hər bir namizədə müəssisələrdə tədris olunan ixtisaslar üzrə 50 test tapşırığı təqdim olunub. Namizədlərə test tapşırıqlarının yerinə yetirilməsi üçün 75 dəqiqə vaxt verilib. Hər bir düzgün cavab bir balla qiymətləndirilib.

Naxçıvan Musiqi Kollecinə işə qəbul üçün test tapşırıqlarının 60 faizini (48 bal), uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə işə qəbul üçün 60 faizini (30 bal) düzgün cavablandırmış namizədlər keçid balını toplamış hesab edilirlər.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

İlin uğurları, elin uğurları

# Parlaq gənclik uğurlu gələcəyin təminatıdır

***Bu gün muxtar respublikamızda dövlət gənclər siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir ki, geniş dünyagörüşə malik, savadlı və intellektual, müasir gənc nəsil formalaşıb. Sevindirici haldır ki, vətənpərvər, çalışqan və sağlam gənclik qədim diyarımızı ölkəmizdən kənarda da layiqincə təmsil edə bilir. Onlara göstərilən qayğının nəticəsidir ki, muxtar respublika gənclərinin fəaliyyəti dövlətimiz tərəfindən layiqincə qiymətləndirilir. Biz də artıq başa çatmaqda olan 2019-cu ildə müxtəlif sahələrdə qazandıqları uğurları ilə fərqlənən gənclərimizlə həmsöhbət olduq.***



**Nərgiz İsmayılova** 1986-cı ildə Ordubad rayonunun Əndəmic kəndində anadan olub. İstər orta məktəb, istərsə də liseydə təhsil aldığı illərdə qələm hər zaman onunla yoldaş olduğundan duyğularını daim şeirlər, pritçalar, hekayələr şəklində ifadə edib. Ədəbiyyatı çox sevməsi səbəbindən də 2004-cü ildə Naxçıvan Dövlət Universitetində Azərbaycan dili və ədəbiyyat ixtisası müəllimliyi üzrə təhsil almağa başlayıb. 2008-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirib, təhsilini 2009-cu ildən Gəncə Dövlət Universitetinin Xarici ölkələr ədəbiyyatı ixtisasında magistr pilləsi üzrə davam etdirib. 2012-ci ildə həmin universiteti də fərqlənmə diplomu ilə bitirib. Hazırda AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsində böyük elmi işçi vəzifəsində çalışan Nərgiz İsmayılova filologiya üzrə fəlsəfə doktoru elmi mərtəbəsinədək yüksəlib.

Bu yaradıcı gənc "Şərq qapısı" qəzetində müxbir kimi də fəaliyyət göstərib. Hazırda "Ədəbiyyat" qəzeti və "Nuhçıxan" İnformasiya Agentliyində köşə yazarıdır. "Ulduz" jurnalının redaksiya heyətindədir. 60 elmi, 400-dən çox qəzet məqaləsinin müəllifi olan Nərgiz həm də Azərbaycan Yazıçılar, Jurnalistlər və Dünya Gənc Türk Yazarlar birliklərinin üzvü, Prezident mükafatçısıdır. Maraqdoğuran yazılarına və uğurlarına görə 2017-ci ildə Azərbaycan Yazıçılar Birliyinin və "Ədəbiyyat qəzetinin" birgə təsis etdiyi "Əli bəy Hüseynzadə mükafatı"na layiq görülüb, muxtar respublikamızda "İlin yazıçısı", "İlin jurnalisti" seçilib. O, 7 bədii nəsr, 6 tərcümə əsərinin müəllifidir. Bunlardan "İçimdəki Merilin"adlı nəsrinin, "Beklenen dolunay" romanının və "Qardələn" roman-gündəliyinin, "Müqəddəs məkan – Naxçıvan" kitabının adlarını çəkmək olar.

Nərgiz İsmayılova deyir: – Bu il də mənim üçün yaddaqalan oldu. AMEA Naxçıvan Bölməsinin "İlin alimi" fəxri diplomu ilə təltif edildim. Bu yaxınlarda Latviyada "Məmməd Səid Ordubadi: Şərq və Qərb" adlı elmi əsərim Azərbaycan və rus dillərində işıq üzü gördü. AMEA Naxçıvan Bölməsinin Gənc Alim və Mütəxəssislər Şurasının sədri kimi Nemətullah Naxçıvaninin irsinin öyrənilməsi ilə bağlı bir neçə layihənin müəllifiyəm, "Nemətullah Naxçıvaninin "Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə" (Quranın kəlmə və hikmətlərini açıqlayan Qeybin açarı və ilahi fəthi) kitabının, həmçinin Türkiyədə nəşr olunan ermənilərin uydurma iddialarına son qoyan iki mükəmməl tarixi əsərin tərcüməçisiyəm. Hazırda Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Dünya ədəbiyyatı və komparativistika şöbəsinin doktorantıyam. "Avropa postmodernizmi və müstəqillik dövrü Azərbaycan bədii nəsri" sahəsində elmi tədqiqat işi aparıram.



Digər bir müsahibimiz bacarıqlı gənc **Turac Seyidbəyli**dir. 1993-cü ildə Naxçıvan şəhərində, hərbçi ailəsində anadan olan Turac bakalavr təhsilini Naxçıvan Dövlət Universitetində Ekologiya ixtisası üzrə alıb. Uzun müddət bu ali təhsil ocağının Tibb fakültəsində fəaliyyət göstərib. Həmin illər ərzində ölkə daxilində və xaricdə tibbi təcrübə və konfranslarda iştirak edib, sertifikatlarla təltif olunub.

Turac Seyidbəyli deyir: – Rəssamlığa həvəsim uşaqlıqdan yaransa da, təhsilimi və fəaliyyətimi tamamilə fərqli sahələrdə davam etdirirdim. Ancaq bu sənətdən də ayrıla bilmirdim. Təhsil aldığım illərdə həvəskar rəssam olaraq bir neçə sərgidə iştirak etmişdim. 2013-cü ildə Naxçıvan Dövlət Universitetində keçirilən "Gənc rəssamlar" adlı sərgidə, 2014-cü ildə isə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinə həsr olunmuş "Yurdum mənim" adlı sərgi-müsabiqədə fərqlənib diplomlara layiq görülmüşəm. 2015-ci ildə Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin təşkil etdiyi "Sərhədlərimizin keşiyində" adlı sərgidə iştirakıma görə sertifikat almışam. Onu da deyim ki, rəssamlıq sahəsində mənə ilham verən, yenidən bu sənətə ruhlandıran Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva olub. Məhz bundan sonra mən rəssamlıq təhsili alıb xəyallarımı gerçəkləşdirmək qərarına gəldim. Beləliklə, 2018-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasına qəbul olundum. Bu mənim illər sonra həyata keçən çoxdankı arzularımdan biri idi. Akademiyada oxumağa başladığım müddətdə bir çox sərgi və müsabiqələrdə iştirak edərək diplom və sertifikatlarla təltif olunub mükafatlara layiq görülmüşəm.

Cari ildə də bir sıra uğurlar əldə etmişəm. Almaniyanın Berlin Kunst universitetinin təşkilatçılığı ilə keçirilən master-klassda fəal iştirakıma görə sertifikatla, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşkil etdiyi "LiveLife" beynəlxalq incəsənət layihəsi çərçivəsində keçirilən sərgidə iştirakıma görə isə diploma təltif olunmuşam. Sərgi zamanı, həmçinin Leyla Əliyevaya öz əsərlərim haqqında məlumat verdim, ideyamı çox bəyəndi. Onun təşəbbüsü ilə İDEA İctimai Birliyinə üzv qəbul edildim. Cari il avqust ayının 29-da Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi və Gənclər Fondunun birgə təşkil etdiyi "Naxçıvan Muxtar Respublikası – 95" devizi altında Saat meydanı turistik istirahət mərkəzində keçirilən açıq hava plenarında I yerə layiq görülərək diplom və hədiyyələrlə təltif edildim. Çəkdiyim əsəri Saat meydanına hədiyyə etdim. Almaniya Federativ Respublikasının Bakıdakı səfirliyi tərəfindən təşkil olunmuş "Berlin divarının sökülməsi", Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycan Respublikasındakı səfirliyi tərəfindən keçirilən "Tolerantlıq" adlı sərgilərdə və Bakı şəhərində təşkil edilən digər əhəmiyyətli sərgilərdə uğurla iştirak etmişəm. Mənim üçün daha bir uğur isə cari il sentyabr ayının 26-da Misirin Qahirə şəhərində keçirilən sərgim oldu. Burada əsərlərim maraqla qarşılandı, Misirin televiziya kanallarından biri məndən müsahibə də aldı. Naxçıvan xəritəsini xüsusi təsvir etdiyim "Sirli dünya" adlı əsərim "Azərbaycan" adlı bukletdə yer almışdı. Əsəri görən hər kəs bəyənir. Hətta sərgi zamanı Misir vətəndaşları tərəfindən də xüsusi maraqla qarşılandı və onu almaq istəyənlər də oldu. Mən isə satmaqdan qəti şəkildə imtina etdim. Çünki orada Naxçıvan düşüncələrim yer almışdı. Bu mənim xaricdəki ilk sərgim idi və gözlədiyimdən də uğurlu nəticə əldə etdim.

Əsərlərimdə, əsasən, milliliyə, vətənpərvərlik mövzularına, milli adət-ənənələrimizə, qədimliyə, tarixi abidələrimiz və yurdumuzun gözəl guşələrinin təsvirinə üstünlük verirəm. Mənim doğma yurdum Naxçıvandır, məqsədim isə dünyada ölkəmizi, onun bir parçası olan muxtar respublikanı layiqli şəkildə təmsil edə bilməkdir. Gələcəklə bağlı bir çox planlarım var və ümid edirəm ki, hər birini həyata keçirəcəyəm.



Digər bir istedadlı gəncimiz isə **Nuri Xavər**dir. O, 1995-ci ildə Naxçıvan şəhərində anadan olub. 2013-cü ildə Heydər Əliyev adına tam orta məktəbi bitirib. 2013-2017-ci illərdə Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsində Tarix ixtisası üzrə təhsil alıb. 2017-ci ildən Naxçıvan Dövlət Tarix Muzeyində bələdçi kimi fəaliyyət göstərir. 2018-ci ildən isə Naxçıvan Müəllimlər İnstitutunda İbtidai təhsilin metodika və metodologiyası ixtisası üzrə magistratura təhsili alır. Nuri Xavər deyir: – Başa çatmaqda olan il, həqiqətən də, mənim üçün unudulmaz, yaddaqalan oldu. Belə ki, cari il 28 noyabr tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən Tarix Muzeyinin 95 illik yubileyi münasibətilə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olundum. Bu, gənc əməkdaş kimi fəaliyyətimə verilən ən yüksək qiymətdir, həm də bir gənc kimi mənim üçün böyük bir stimuldur. Mən gənclərə göstərdiyi diqqət və qayğıya görə Ali Məclisin Sədrinə dərin minnətdarlığımı bildirirəm. Çalışacağam ki, bundan sonra da doğma yurdumun qədim tarixini, zəngin mədəniyyətini, milli dəyərlərini layiqincə təbliğ edəm.



**Fərhad Əsgərov** isə innovativ inkişafa böyük maraqgöstərən gənclərimizdəndir. 1999-cu ildə Naxçıvan şəhərində anadan olub. Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsinin Dünya iqtisadiyyatı ixtisası üzrə IV kurs tələbəsidir.

O, "Elektron logistic" və "VeloTour" startap layihələrinin ideya müəllifi, komanda rəhbəri və İKT üzrə iştirakçısı, Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsində fəaliyyət göstərən "Könüllü gömrükçü" dəstəsinin üzvüdür. Fərhadla söhbət zamanı bildirdi ki, bu yaxınlarda Dövlət Gömrük Komitəsində iqtisadi sahədə startap layihələrinin təqdimatı və dəyərləndirilməsi ilə bağlı tədbir keçirildi. Mənim təqdim etdiyim "Elektron logistic" və "VeloTour" adlı layihələr gələcək perspektivi, sosial və iqtisadi əhəmiyyəti nəzərə alınaraq daha cəlbedici hesab olundu və elektron logistika ilə bağlı layihə "Ən yaxşı layihə" nominasiyası üzrə qalib elan edilərək mükafatlandırıldı.

Fərhad deyir ki, hər bir layihənin uğur qazanması üçün həmin layihənin biznes tərəfi ilə yanaşı, sosial əhəmiyyət kəsb etməsi də zəruridir. Məhz "VeloTour"da həm sosial, həm də biznesyönümlü layihədir. Biz burada insan sağlamlığının və ətraf mühitin qorunmasına kömək etməklə, özü-özünü təmin edə və gəlir gətirə bilən bir startap layihəsi nəzərdə tutmuşuq. Potensial müştəri olaraq xitab etdiyimiz kütlə çox genişdir. Müştərilər təklif etdiyimiz xidmətlərdən istifadə edərək öz sağlamlıqlarının və ətraf mühitin qorunmasında rol oynaya, eyni zamanda ailələri ilə səmərəli vaxt keçirə bilərlər. Bu layihəyə velosiped istifadəsi üzrə dünyada baş verən texnoloji innovasiyalar da tətbiq ediləcək.

"Elektron logistic" layihəsi isə muxtar respublikamızın həm qonşu ölkələrlə, həm də ölkəmizin digər bölgələri ilə iqtisadi ticarət zamanı yaranan yükdaşınması problemlərinin aradan qaldırılmasını təmin etmək üçün nəzərdə tutulub. Layihə məhsulun, əmtəənin, servisin müştərinin tələbatını ödəmək üçün hər hansı başlanğıc nöqtədən istehlak nöqtəsinə qədər olan hərəkətinin idarə edilməsi prosesinə nəzarət edəcək. Layihənin gələcəkdə vebsaytının da yaradılması nəzərdə tutulur.

Qeyd edək ki, Fərhad Əsgərov "İdeyadan Biznesə" startap müsabiqələrində hər il aktiv iştirakı ilə fərqlənir. Belə ki, o, komandası ilə "NakhchivanBookCenter" (Naxçıvan turunda III yer), "SmartDoctor" layihələrini təqdim edib. Dünya miqyaslı "Enactus" layihə müsabiqəsinin Azərbaycan turnirində Naxçıvan Dövlət Universitetinin komandası ilə "WastewillbeBest", "Boomerang" layihələri ilə təmsil olunub.

*Həmsöhbət olduğum gənclər əldə etdikləri uğurların hər birinin təməlində muxtar respublikada dövlət gənclər siyasətinin, gənclərə göstərilən diqqət və qayğının dayandığını vurğuladılar. Onların istedadlarının inkişafı üçün yaradılan hərtərəfli şəraitə görə minnətdarlıq etdilər. Yazıdan da göründüyü kimi, bu il də muxtar respublika gəncləri üçün uğurlu olub. İnanırıq ki, 2019-cu ili müxtəlif sahələrdə qazandıqları uğurlarla yaddaqalan bir il kimi yola salan gənclərimiz üçün 2020-ci il də müvəffəqiyyətlə başlayacaq.*

Güntac ŞAHMƏMMƏDLİ

## Əhalinin sağlamlığının qorunması diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini noyabr ayında da davam etdirib, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqət mərkəzində saxlanılıb, seminar və elmi-praktik konfranslar təşkil olunub.

Ötən ay 43 tibb işçisi növbəti attestasiya imtahanı keçərək uğurlu nəticə qazanıb. Həkim, rezident və orta tibb işçiləri Türkiyə Respublikasında və Bakı şəhərində kurslara göndərilib. Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim briqadası Culfa rayonunda yaşayan I qrup yataq xəstələrini evlərində tibbi müayinədən keçirib. Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkimləri tərəfindən Naxçıvan Muxtar Respublika Xəstəxanasında 51 müayinə, 14 cərrahiyyə əməliyyatı aparılıb.

Həmçinin I-VI sinif şagirdləri arasında ilkin vərəmi aşkarlamaq məqsədilə 6 min 365 uşağa mantu sınağı qoyulub, təhsil müəssisələrində 44 min 292 şagird kütləvi müayinələrə cəlb edilib, 5 min 542 şagird dispanser qeydiyyata alınıb. Həmçinin Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin səyyar flüoroqrafiyası vasitəsilə 373 məktəblidə müayinə aparılıb. Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkimləri tərəfindən 115 qadında süd vəzinin profilaktik müayinəsi aparılıb, patologiya aşkar olunan qadınlar ətraflı müayinə və müalicəyə dəvət edilib.

Noyabr ayında Bakı şəhərindən 100 sağlamlıq imkanı məhdud şəxs Darıdağ arsenli su müalicə və istirahət kompleksinə, Duzdağ Fizioterapiya Mərkəzinə, Diaqnostika Müalicə Mərkəzinə sanator-kurort müalicəsi üçün qəbul olunub, muxtar respublika üzrə 50 nəfər Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına, 12 nəfər isə müxtəlif xəstəxanalara müalicəyə göndərilib.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## Ali təhsil ocağında bayram tədbiri



*"Naxçıvan" Universitetində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə keçirilən tədbirdə rektor, dosent Nurlana Əliyeva giriş sözü ilə çıxış edərək kollektivə bayram təbriklərini çatdırıb.*

Rektor bildirib ki, ulu öndər Heydər Əliyevin ən böyük arzularından biri də dünyada yaşayan azərbaycanlılar arasında birlik və həmrəyliyin formalaşdırılması idi. Buna isə ümummilli liderimiz 1991-ci il dekabrın 16-da, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən nail olmuşdur. Ulu öndər Azərbaycana ikinci rəhbərliyi dövründə də xaricdə yaşayan həmvətənlərimizin təşkilatlanması, məskunlaşdıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak etmələri məsələlərini daim diqqət mərkəzində saxlamışdır. Bu müdrik siyasət dövlət başçısı tərəfindən uğurla davam etdirilir.

Sonra tədbirin bədii hissəsi olub. Tələbələrin ifasında səslənən bir-birindən rəngarəng musiqilər və rəqs nömrələri tədbir iştirakçılarında xoş bayram əhval-ruhiyyəsi yaşadıb.

Seyfur HACIMURADOV

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 885